Yazan
29.11.13 17:42 -



Azərbaycan prezidenti İlham Əliyev Vilnüsdə Avropa İttifaqının III "Şərq tərəfdaşlığı" Sammitində iştirak edir.

Noyabrın 29-da Litvanın paytaxtı Vilnüsdə Avropa İttifaqının III "Şərq tərəfdaşlığı" Sammitinin rəsmi açılışı olub.

Prezident İlham Əliyev də sammitdə iştirak edir. Dövlət başçısını Litva prezidenti Dalya Qribauskayte, Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy və Avropa Komissiyasının sədri Jose Manuel Barrozu qarşılayıb.

Avropa İttifaqı ölkələrinin, eləcə də "Şərq tərəfdaşlığı" proqramına üzv olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdikləri sammiti Litva prezidenti Dalya Qribauskayte açaraq qonaqları salamlayıb.
Sonra Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy və Avropa Komissiyasının sədri Jose Manuel Barrozu çıxış ediblər.

Daha sonra imzalanma mərasimi olub.

Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında saziş imzalanıb.

Sazişi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Litvanın xarici işlər naziri Linas Linkyaviçyus və Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle imzaladılar.

Sammitin iştirakçıları birgə foto çəkdirdilər.
Tədbir işini plenar iclasla davam etdirir.

Xatırladaq ki, iki ildən bir təşkil edilən “Şərq tərəfdaşlığı” Sammiti ilk dəfə 2009-cu ilin mayında Çexiyanın paytaxtı Praqada, ikincisi isə 2011-ci ilin sentyabrında Polşanın paytaxtı Varşavada keçirilib.